# KÜLƏK–
# Yel kürəsinin şahzadəsi

***"Külək - Yel kürəsinin şahzadəsi" kitabı "ASAN xidmət", Mədəniyyət, Gənclər və İdman nazirlikləri, BMT-nin İnkişaf Proqramı, digər dövlət və özəl qurumların dəstəyi ilə "Daş Salnamə" muzeyində oxuculara təqdim olunub.***

***Xülya Cəfərova uşaq yaşlarından bədii yaradıcılıqla məşğuldur. O həm jurnalist, həm müəllim, həm də gənc yazıçıdır. Hər zaman öz üzərində çalışan Xülya "Külək - Yel kürəsinin şahzadəsi" kitabında demək olar ki, təxəyyülünün gücü ilə milli nağıl qəhrəmanlarımızı tamam yeni bir tərzdə görür və təbiətin də bütün qüvvələrini canlandıraraq onlara həyat verir. Bu həyat Bakımızı anladan təbiət hadisələrinə, folklorumuzun mövzusu olan qəhrəmanlara yeni oxunuş, yeni sima verməklə onları bütünlüklə müasirləşdirir və bu günün superqəhrəman statusuna yüksəldərək, mistik, amma olduqca xeyirxah, insanlara sevgi və mərhəmət aşılayan qüvvələrə çevirir! Sanki onlar müasir dünya ədəbiyyatında mövcud olan ədəbi superqəhrəmanların silsiləsinə qoşulur! Əsasən uşaq auditoriyası üçün nəzərdə tutulan bu fentezi roman əslində böyüklər üçün də çox faydalı və əyləncəli ola biləcək bir mütaliədir.***

***Ən əsası isə odur ki, kitab doğma vətənə, onun rəmzlərinə sevgi və ehtiram aşılayır!***

***"Külək - Yel kürəsinin şahzadəsi" müəllifin ilk kitabıdır. Əsər Azərbaycan ədəbiyyatında ilk milli superqəhrəmanların yer aldığı fentezi romandır. Tezliklə "Külək" seriyasından növbəti kitabının çapı nəzərdə tutulur.***




* * *

*Çingiz Abdullayev*
*Azərbaycan Yazıçılar Birliyinin katibi:*

Mistik janrda yazılmış roman öz süjet xəttinin ağlın hüdudlarını aşaraq xəyal gücünün genişliyini ortaya qoyması ilə xüsusən seçilir. Oxucunu zehnin dərinliyindəki şüuraltı fikirlərə, insan içindəki ağlasığmaz utopik düşüncələrə doğru sehrli səyahətə aparan əsər hadisələrin çoxşaxəli tərənnümü ilə yaddaşlara həkk olunur. Enib yüksələn süjet xətti oxucunu romana fokuslandıraraq öz təsirinin ağuşuna alır. Eyni zamanda, cərəyan edən əhvalatların gedişatı zamanı bir çox tarixi yerlərin adının çəkilib məlumat verilməsi, tarixi hadisələrin diqqətə çatdırılması əsərin öyrədici tərəfini də açıq-aşkar ortaya qoyur. Bu nöqteyi-nəzərdən roman oxucusunu tarixi baxımdan olduqca zənginləşdirərək öz töhfəsinin hüdudlarını da aşır.

Müəllifə yaradıcılıq uğurları arzu edir, yazılarının davamlı olmasını, üzərində işləyərək gələcək əsərlərini daha da mükəmməlləşdirməyi, seçdiyi janrda uğurun zirvəsinə çatmağı diləyirəm!

* * *






*Cahangir Hacıyev*
*ASAN Könüllülük Məktəbinin rəhbəri:*

Xülya Cəfərovanın əsəri ilə tanışlıq məndə uğurlu bir sintez təəssüratı yaratdı. Bir tərəfdən əsrlər boyu bəşəriyyət tərəfindən öyrənilən qədim yunan, digər tərəfdən isə qədim Azərbaycan, türk mifologiyasının belə maraqlı bir tərzdə uşaq və gənc oxuculara çatdırılması gənc yazarın geniş düşüncə tərzindən xəbər verir. Təbii ki, bu əsəri sadə bir oxucu kimi qiymətləndirə bilərəm. Lakin tam qətiyyətlə onu qeyd etmək istərdim ki, bir Azərbaycan gəncinin məhz fentezi janrında əsər yaratması bir çox məsələlərdən xəbər verir. Ən əsası, məndə müasir Azərbaycan gəncliyinə olan inamı bir daha artırır. Əminəm ki, bu əsər parlaq bir yaradıcılığın uğurlu başlanğıcı olacaqdır.

* * *

*Fuad Məmmədov*
*kulturoloq, professor,*
*"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti:*

Xülya Cəfərovanın fentezi janrında yazılmış "Külək - Yel kürəsinin şahzadəsi" romanı olduqca orijinal və diqqətəlayiq bir əsərdir. Əsər müəllifin mənalı və incə həyat fəlsəfəsini, pozitiv dünyagörüşünü, romantik və xeyirxah hisslərini oxuculara çatdırmaqla, Azərbaycanda "yüksək mədəniyyətli insanlar cəmiyyətinin" formalaşması və inkişafı, gənc nəslin xeyirxahlıq, alicənablıq və vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Müəllifin istedadını, təfəkkür mədəniyyətini, orijinal ideyalarını və birinci roman üçün gözlənilməz yazıçılıq peşəkarlığını açıqlayan bu gözəl əsərin tamamilə qeyri-adi sehrli təsiri var. Eyni zamanda, romandakı qəhrəmanlıq motivləri, şər ilə mübarizədə xeyrin qələbəsi ilə nəticələnən fəlsəfi fikirlər böyük tərbiyəvi gücə malikdir. Müəllif gənc oxucuları özünü öyrənməyə, özünə inanmağa, öz daxillərində olan "fövqəlgüc"ü kəşf etməyə çağırır.

Xalqımızın varlığı olan mifoloji "Simurq" quşu, qədim Novruz bayramı, "adını şahzadənin adından götürən" küləklər şəhəri Bakı, tarixi Qız qalası və başqa "personajlar" romana xüsusi məlahət və vətənpərvər ab-hava gətirir, vətənimizə olan məhəbbət və qürur hisslərini artırır. Azərbaycanın ən qədim mifoloji obrazı, xeyirxahlıq və dirçəliş rəmzi olan "Simurq" quşunun həyatverici və xilasedici rolu xüsusilə diqqəti cəlb edir.

İnanıram ki, bu gözəl əsər Azərbaycanın ruhi-əqli və mənəvi mədəniyyətinə verilmiş qeyri-adi bir töhfə kimi oxucularımız tərəfindən yüksək qiymətləndiriləcək və ədəbiyyatımızda layiqli yerini tutacaq.




* * *

*Maya Bədəlbəyli*
*Rusiya Yazıçılar Birliyinin üzvü:*

Etiraf edim ki, artıq uzun illərdir ki, yeniyetməlik dövrümlə vidalaşmışam və təəssüf ki, fentezi janrının pərəstişkarı deyiləm. Buna baxmayaraq, gənc yazar Xülya Cəfərovanın "Külək - Yel kürəsinin şahzadəsi" adlı əsəri ilə tanışlıq məndə güclü və silinməz bir təəssürat yaratdı. Mərkəzində Azərbaycanımızın doğma simvolları və tarixi abidələrinin dayandığı süjeti böyük bir maraq və sevgiylə oxudum. Təsadüfi deyil ki, küləklər şəhəri hesab olunan Bakımız romanda da Yel kürəsinin mərkəzi kimi təqdim olunub.

Əsərdə qədim türk və yunan mifologiyasından bacarıqla istifadə olunması oxucunun üfüqünü daha da genişləndirir. Ekspozisiyanın sadə və anlaşıqlı olması, xeyirlə şərin əbədi mübarizəsinin gözəl bir dillə təqdimatı erkən yaşlardan etibarən yeniyetmələrdə mənəvi dəyərlərin təməlinin qoyulmasına xidmət edir.

Kitab yaxşılığın və saflığın misilsiz bir təcəssümüdür. Mən onu işıqlı bir nağıla bənzədirəm. Bu baxımdan, müəllifi səmimi qəlbdən təbrik edirəm!

* * *

*Lalə Əhmədova*
*Filologiya elmləri doktoru, professor,*
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun*
*elmi işlər üzrə direktor müavini:*

Əsər maraqla oxunur. Dili səlisdir. Müəllif fikirlərini aydın və dəqiq ifadə edir. Təhkiyənin cazibədarlığı şübhəsiz, mühüm məziyyətdir və müəllifin düşüncə tərzini səciyyələndirir. Yəni təhlil müəyyən möv-






zunu araşdırmaq üçün onda analitik təfəkkür əlamətlərinin olduğunu üzə çıxarır. Burada işıqlandırılan mövzu təzə, modern tərzdə olsa da, fəlsəfi, ədəbi təcrübənin daxili təkamülü ilə şərtlənir.

Müəllifin əsəri məhz körpə qız övladına həsr eləməsi, ürəyindəki ana məhəbbətinin gücü həmin romanın səmərəli, elmi, ədəbi və çox maraqlı bir üslubda yazılmasına səbəb olmuşdur. Zənnimcə, "Külək - Yel kürəsinin şahzadəsi" adlı roman nəinki axır zamanların, ümumiyyətlə, keçmişin və gələcəyin tutumlu, siqlətli əsərləri sırasında geniş əks-səda doğuracaq.

* * *

*Solmaz Amanova*
*Uşaq ədəbiyyatı yazarı, professor,*
*Avropa Təbii Elmlər Akademiyasının*
*akademiki, "İRS" Mədəni-Təhsil mərkəzinin rəhbəri:*

"Külək - Yel kürəsinin şahzadəsi" adlı ilk romanında da olduqca fərqli, Azərbaycan oxucusu üçün yeni bir istiqamətə yönəlmişdir. Romanın süjet xəttinin əsasını bugünədək yüzlərlə əsərə mövzu olmuş xeyirlə şərin əbədi mübarizəsi təşkil edir. Lakin yazar özünəməxsus üslubu, yanaşma tərzi, başlanğıcını utopik "Yel kürəsi" adlı planetdən götürən fərqli süjet xətti ilə oxucuda sözün yaxşı mənasında, heyrət doğurur.



Fentezi janrında yazılmış roman gözlənilməz gedişatlarla zəngindir. Oxucunu Azərbaycan, eləcə də dünya tarixində baş vermiş önəmli hadisələrə tam fərqli bir mövqedən baxmağa sövq edir. Bu da onu müşahidəçi mövqeyindən çıxararaq, iştirakçı statusuna gətirir. Həmçinin ölkəmizin tarixi abidələrinin mistik, sirli-sehrli məkanlar kimi təqdimatı oxucunu həmin məkanları yenidən nəzərdən keçirməyə, tariximizin bu dəyərli miraslarını daha dərindən araşdırmağa həvəsləndirir.

Romanın bədii-estetik zənginliyi, nağılla gerçəkliyin harmoniyasını özündə ehtiva edən qeyri-adi üslubu onu qələmə alan şəxsin ədəbi imkanlarının nə qədər zəngin olduğunu nümayiş etdirir. Bu baxımdan, əsər insanın mənəvi "aclığ"ını doyuzduran bir "qida"dır.

Fikrimcə, "Külək - Yel kürəsinin şahzadəsi" yeniyetmələr və məktəblilər üçün əvəzolunmaz bir əsərdir. Hətta uzun illərini uşaq ədəbiyyatına həsr etmiş biri kimi, əsərin daşıdığı tərbiyəvi, mənəvi və fəlsəfi yükü, aşıladığı müsbət duyğuları, təbliğ etdiyi milli-mənəvi dəyərləri nəzərə alaraq deyərdim ki, hər bir məktəbli bu əsəri oxumalıdır. Əsərin baş qəhrəmanı Külək cəsarəti, məğrurluğu, yaşına xas olmayan müdrikliyi ilə gənclərimiz üçün uğurlu bir nümunədir.

* * *



*Mübariz Süleymanlı*
*Fəlsəfə elmləri doktoru,*
*Azərbaycan Dövlət Mədəniyyət və*
*İncəsənət Universitetinin dosenti:*

Gənc yazar Xülya Cəfərovanın fentezi janrında yazılmış "Külək - Yel kürəsinin şahzadəsi" əsəri Azərbaycanda demək olar ki, bu günə qədər işlənməmiş bir mövzuya həsr edilib. Maraqlıdır ki, əsərdə mərkəzi Bakı olan Yel planetinin sakinləri "külək" mənasına gələn "ventus"lar adlanırlar. Əsərin süjet xətti xeyirlə şərin mübarizəsi üzərində qurulub. Şər qüvvələrin təmsilçisi Alovla xeyrin simvolu kimi təqdim edilən Küləyin mübarizəsi əsərin əsas kompozisiya xəttidir.

Müasir Bakının əsas mədəniyyət simvollarının mistik formada təqdimatı fonunda xeyirlə şərin mübarizəsi oxucuya nikbin ovqat bəxş edir. Əsərin ümumi ruhundan anlaşılan da budur ki, superqəhrəman Küləyin şərlə mübarizəsində müəllif əsas diqqəti gənc nəslin ədəbi-fantastik təxəyyülünün inkişafına yönəltmişdir. Ümid edirəm ki, qələmini yığcam həcmli ədəbi-bədii nümunələrlə sınamış Xülya Cəfərovanın ilk kitabı oxucular tərəfindən rəğbətlə qarşılanacaq və müəllifini yeni əsərlər yazmağa ruhlandıracaqdır.

Zöhrə Əliyeva



